# Azərbaycan İslam həmrəyliyinə böyük töhfə verəcək

Dini, tarixi, siyasi və mənəvi dəyərləri ilə bir-birinə bağlı olan müsəlman ölkələrinin uğurlu birlik modeli kimi özünü təsdiqləyən, beynəlxalq münasibətlər sistemində xüsusi çəkiyə malik olan İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ilə əlaqələrin genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan həmin təşkilatla qarşılıqlı faydalı münasibətlər qurmaqla ümummilli maraqlarını daha geniş coğrafi arealda müdafiə etmək, üzləşdiyi bir sıra problemləri beynəlxalq birliyə çatdırmaq baxımından əlverişli tribuna qazanıb.

Hazırda 60-a yaxın dövlətin üzv olduğu İƏT dünya siyasətində sözü eşidilən, mövqeyi nəzərə alınan mötəbər təşkilat sayılır. Təşkilatın əsas məqsədi müsəlman aləmini birləşdirərək həmrəyliyi təmin etmək, dövlətlər arasında siyasi, iqtisadi və mədəni əməkdaşlığı gücləndirmək, müsəlman xalqlarının mənafelərini, milli hüquqlarını, müstəqilliyini qorumaq üçün səmərəli fəaliyyət göstərməkdir. Bu mötəbər beynəlxalq təşkilata üzvlük Azərbaycanın beynəlxalq əlaqələrini və dünya birliyindəki mövqelərini möhkəmləndirməklə yanaşı, ölkəmizə İslam aləminin mənəvi, siyasi və iqtisadi dəstəyindən yararlanmaq imkanı verir. Respublikamızın İƏT ilə münasibətlərinin tarixi 25 ilə yaxındır. Keçmiş sovet respublikaları arasında birinci olaraq məhz Azərbaycan təşkilata üzvlük üçün müraciət etmiş və 1991-ci ilin dekabrında bu istəyini gerçəkliyə çevirmişdir. İƏT ilk gündən yenicə müstəqilliyini bərpa etmiş respublikamızın problemlərinə həssaslıqla yanaşmış, 1992-ci ilin martında Ermənistanın təcavüzkarlıq siyasəti ilə bağlı bəyanatla çıxış etmişdir.

İslam Əməkdaşlıq Təşkilatı Ermənistanı təcavüzkar, Xocalı faciəsini isə soyqırımı aktı kimi tanıyan ilk beynəlxalq təşkilatdır. Bütün bunlar onu göstərir ki, Azərbaycanı İslam Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrlə yalnız milli-mənəvi dəyərlər deyil, beynəlxalq siyasi arenada birgə fəaliyyət də ciddi şəkildə bağlayır. İslam Əməkdaşlıq Təşkilatı və onun üzvü olan dövlətlər Azərbaycanın haqq işinin tərəfdarı kimi beynəlxalq səviyyədə Ermənistan-Azərbaycan münaqişəsinin ədalətlə, yəni sərhədlərin toxunulmazlığı, ərazi bütövlüyü prinsipləri əsasında həll edilməsinə dəstək verməklə təşkilatın Nizamnaməsində nəzərdə tutulmuş islami həmrəylik ideyasına sadiqdir.

Prezident İlham Əliyev müsəlman dövlətlərinin nüfuzlu təşkilatı olan İƏT ilə münasibətlərin genişləndirilməsini xarici siyasətdə vacib istiqamətlərdən biri kimi müəyyənləşdirib. Ölkə rəhbərinin bu günlərdə Türkiyənin evsahibliyi etdiyi İslam Əməkdaşlıq Təşkilatının XIII Sammitində iştirakı və keçirdiyi yüksək səviyyəli görüşlər də əməkdaşlığın uğurla inkişaf etdiyindən xəbər verir. "Ədalət və sülh üçün birlik və həmrəylik" devizi altında keçirilən budəfəki sammitdə İslam dünyasının mövcud problemlərinin həll edilməsi, risklərin və təhdidlərin qarşısının alınması yollarının tapılması ilə bağlı geniş fikir mübadiləsi aparıldı. Hazırda İslam dünyasında, ərəb ölkələrində, ümumilikdə Yaxın Şərq regionunda ciddi böhranların yaşandığını nəzərə alsaq, belə bir tədbirin keçirilməsi xüsusi əhəmiyyət daşıyır.

İstanbulda Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Bakir İzetbeqoviç, İran İslam Respublikasının Prezidenti Həsən Ruhani, BMT Baş katibinin siyasi məsələlər üzrə müavini Cefri Beltman ilə görüşlərində İslam Əməkdaşlıq Təşkilatının XIII Sammitinin münasibətlərimizin dərinləşdirilməsi baxımından əhəmiyyəti xüsusi vurğulandı. Yüksək səviyyəli görüşlərin əlaqələrimizin möhkəmləndirilməsində rolu, ölkələrimizin energetika və digər sahələrdə qlobal layihələrdə əməkdaşlığının önəmi qeyd edildi.

İƏT-in İstanbul Sammitində müsəlman ölkələrinin üzləşdiyi problemlərə diqqət

ISTANBUL SUMMIT

UNITY AND SOLIDARITY FOR JUSTICE AND PEACE

APRIL 14-15, 2016

yönəldildi. Son vaxtlar bölgədə silahlı münaqişələrin, terror hadisələrinin daha da şiddətləndiyi və bunun ciddi bir təhdid olduğu bildirildi. İslam dünyasında mövcud problemlərin, o cümlədən Fələstin məsələsinin, Suriya böhranının, həmçinin son illər artmaqda olan islamofobiyanın və digər problemlərin həlli üçün səylərin birləşdirilməsinin vacibliyi vurğulandı. Azərbaycanın ən ağrılı məsələsi olan Dağlıq Qarabağ münaqişəsi bu dəfə də müzakirə predmeti oldu. İslam Əməkdaşlıq Təşkilatının Baş katibi İyad bin Amin Mədəni Ermənistanın Azərbaycana qarşı davam etdirdiyi işğalçılıq siyasətini pisləyərək bildirdi ki, bu ölkənin Dağlıq Qarabağda işğalı davam etməkdədir: "Biz problemin Birləşmiş Millətlər Təşkilatının münaqişə ilə bağlı qərarlarına uyğun olaraq həllini istəyirik. Azərbaycan dövlətinin beynəlxalq aləmdə tanınan sərhədlərinin və suverenliyinin bərpasının, bölgədə sülhün və təhlükəsizliyin bərqərar edilməsinin vacibliyini düşünürük".

***Ardı 2-ci səh.***

# Azərbaycan İslam həmrəyliyinə böyük töhfə verəcək

*Əvvəli 1-ci səh.*

Müsəlman ölkələrindəki qarşıdurmaların tezliklə həll olunmasının müasir dünyanın qarşısında duran əsas vəzifə olduğunu deyən Baş katib diqqətə çatdırdı ki, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr əsasında həll olunmalıdır. İƏT problemin həllində Azərbaycana dəstəyini davam etdirəcək. Baş katib əminliklə vurğulayıb ki, İƏT-in İstanbul Sammiti digər müsəlman ölkələrindəki münaqişələr kimi, Dağlıq Qarabağ problemi barədə də ədalətli və qətiyyətli mövqe nümayiş etdirəcək.

İslam Əməkdaşlıq Təşkilatının XIII Sammiti çərçivəsində birinci sessiyada çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev təşkilatın beynəlxalq münasibətlər sistemində mövqelərinin getdikcə möhkəmlənməsini, baş verən proseslərə təsir imkanlarının artmasını xüsusi razılıqla vurğulamış, müsəlman dövlətləri arasında dini, siyasi, tarixi-mədəni əlaqələrin gücləndirilməsi zərurətindən söz açmışdır. Dövlət başçısı İƏT ölkələri arasında bütün sahələrdə əməkdaşlığın genişləndirilməsinin vacibliyini önə çəkdi: "Azərbaycan İslam ölkələri ilə əməkdaşlığı prioritet hesab edir. Son illər ərzində Bakıda İƏT-ə üzv ölkələrin xarici işlər, mədəniyyət, turizm, təhsil, əmək və digər nazirlərinin 10-a yaxın görüşü olmuşdur. Mən İƏT-in qarşılıqlı dəstək və həmrəylik yolunda fəaliyyətini yüksək qiymətləndirirəm. Bu gün dünyada islamofobiya ciddi təhlükələrdən biridir. Biz bu tendensiyanı qətiyyətlə pisləyirik. Əslində İslam sülh, mərhəmət, dözümlülük, ədalət dinidir. İslamı terrorla eyniləşdirmək isə səhv və qərəzli yanaşmadır. Terrordan ən çox əziyyət çəkən elə müsəlman ölkələridir".

Sammitdə beynəlxalq terrorizmə qarşı birgə və mütəşəkkil mübarizənin vacibliyi ilə bağlı müxtəlif təkliflər də səsləndi. Mütəşəkkil cinayətkar fəaliyyət, xüsusilə onun təzahür formalarından olmaqla artıq milli dövlət sərhədlərini adlamış terrorizm bütün ölkələrin maraqlarına toxunan qlobal təhlükəyə çevrilmişdir. Dünya ictimaiyyəti, xüsusilə İslam dünyası bu təhlükədən daha çox əziyyət çəkir, sivilizasiyalararası toqquşmanın təzahürü kimi İslam dininin mahiyyətinin təhrif olunmasına, onun terrorizmlə əlaqələndirilməsinə uğursuz cəhdlər edilir. Erməni terrorizmi ilə üzləşmiş Azərbaycan bu ümumbəşəri bəla ilə mübarizədə beynəlxalq birliyin səylərini tam müdafiə etməklə siyasi, iqtisadi, dini və digər motivlərdən asılı olmayaraq terrorizmin bütün forma və təzahürlərinə qarşı birmənalı mövqe tutur. Terrorizmin getdikcə qlobal xarakter alması öz növbəsində bu təhlükəyə qarşı mübarizədə beynəlxalq ictimaiyyətin səylərinin birləşdirilməsi zəruriliyini artırır. Azərbaycan hakimiyyəti hesab edir ki, uzunmüddətli planda beynəlxalq terrorizmlə mübarizənin məqsədi yalnız ayrı-ayrı terrorçu təşkilat, qrup, yaxud şəxslər deyil, həm də onu doğuran səbəb və mənbələrin aradan qaldırılması olmalıdır.

Prezident İlham Əliyev Azərbaycanın terrordan əziyyət çəkən ölkə olduğunu və Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə əlaqədar İƏT-in qəbul etdiyi qərarları müsbət qiymətləndirdi: "Mən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həllini dəstəkləyən ədalətli qətnamələrə görə İƏT-ə səmimi minnətdarlığımı bir daha ifadə edirəm. Lakin işğalçı Ermənistan bu qərarlara məhəl qoymur və danışıqlar prosesini pozmaq üçün vaxtaşırı silahlı təxribatlara əl atır. Onlardan biri də aprelin əvvəllərində törədilmişdir. Silahlı hücum nəticəsində Azərbaycan hərbçiləri və mülki şəxslər həlak olmuşlar. Azərbaycan Ordusu Ermənistanın təxribatının qarşısını aldı. Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə əlaqədar İƏT qərar qəbul edib ki, xarici işlər nazirləri səviyyəsində kontakt qrupu yaradılsın. Bu qərara görə təşəkkür edirəm".

İslam Əməkdaşlıq Təşkilatının XIII Sammitinin yekunları bir daha təsdiqləyir ki, qlobal təhlükəyə çevrilən terrorizmə qarşı mübarizədə İslam dövlətlərinin birliyi son dərəcə vacibdir. Dünya siyasətinə əsaslı təsir imkanı olan müsəlman dövlətləri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlıq münasibətlərinin yaradılması rəsmi Bakının xarici siyasətində prioritet istiqamətlərdən birinə çevrilib.

***Elnur HACALIYEV,***
***"Azərbaycan"***